# TARİX ÜZRƏ TƏDRİS EKSKURSİYALARININ SƏMƏRƏLİ TƏŞKİLİ MƏKTƏBDƏ TƏLİM-TƏRBİYƏNİN YÜKSƏLDİLMƏSİNİN MÜHÜM VASİTƏSİ KİMİ

**Məleykə Nağıyeva,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: maleyka001@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* M.M. Əmirov,
*ped.ü.fəls.dok.* D. Musayev

***Açar sözlər***: *tarix üzrə tədris ekskursiyası, təlim-tərbiyə, şagird şəxsiyyəti, tarixi biliklər, müəllim, bələdçi, diyarşünaslıq*
***Ключевые слова:***, *учебная экскурсия по истории, учебно-воспитательный, личность ученика, исторические знания, учитель, проводник, краеведение*
***Key words:*** *history, educational excursion, training, education, student identity, historical knowledge, teacher, guide, geography*

Dərsdənkənar tədbirlər şagirdlərin məqsədyönlü formalaşması prosesidir. Həmin tədbirlərə müəllim və şagirdlərin idarəedilən və nəzarətdə olan qarşılıqlı təsiridir. Ümumtəhsil məktəblərində xüsusi təlim-tərbiyəvi əhəmiyyəti olan həmin problem yetərincə tədqiq edilməmişdir.

Araşdırmalardan aydın olur ki, bir çox elmlərdə olduğu kimi tarixin tədrisi metodikası elmində də mübahisəli məsələlər var. Bunlardan biri də tarix üzrə tədris ekskursiyalarının təşkili və aparılması ilə bağlıdır. Deməli, tarix üzrə tədris ekskursiyalarına tədris planında xüsusi saat ayrılırsa bunu dərs ekskursiya adlandırırlar. Xüsusi olaraq dərs saatı ayrılmırsa dərsdənkənar tədbirlər adlandırılır. Buna görə də tarixin tədrisi metodikası elmi həmin məsələyə aydınlıq gətirməyi lazım bildi.

Problemin işlənmə səviyyəsinə diqqət yetirdikdə aydın olur k, rus pedaqoqu T.V. Sorokina ekskursiyanın təşkilini aşağıda sadalanan tələblər əsasında planlaşdırılmasını məqsədəuyğun hesab edir: “1) ekskursiyaların məqsədinin aydın müəyyənləşdirilməsi, bütün fəaliyyətin əvvəldən axıra qədər gözdən keçirilməsi; 2) ekskursiyanın keçirilməsi prosesində hər bir şagirdin vəzifəsinin dəqiq müəyyənləşdirilməsi; 3) ekskursiyada görüləcək iş üçün lazım olan hər şeyin hazırlanması nəyin köməyi ilə nail olmaq olar? ; 4) ekskursiyadan əldə edilən bilik, bacarıq vərdiş və tərbiyəliliyin nəticələrini ölçmək üçün icranın normalarının müəyyənləşdirilməsi yəni nailiyyətin həcmi, ölçüsü necədir?” (1, 135). Müəllifin fikrinə görə ekskursiyaların düzgün planlaşdırılması və mütəşəkkil təşkili prosesin səmərəliliyini yüksəltmək üçün şərait yaradır.

Pedaqoji ədəbiyyatlarda məktəbdənkənar tədbirlərin təlim-tərbiyəsini təkmilləşdirmək məqsədi ilə məktəbdənkənar tərbiyə müəssisələrinin üç şəbəkədən ibarət olduğunu müəyyənləşdirmişik. Bunları aşağıdakı qaydada sistemləşdirmişik.

“Məktəbdənkənar müəssisələrin birinci şəbəkəsinə daxildir: gənc turistlər stansiyaları, gənc təbiətçilər stansiyaları, uşaq-gənc yaradıcılıq sarayları, uşaq-xor studiyaları, gənc paraşütçülər klubu, musiqi məktəbləri və s

Məktəbdənkənar müəssisələrin ikinci şəbəkəsinə daxildir: kütləvi kitabxanalar , gənclər parkları, gənclər teatrları, gənclər kinoteatrları, gənc yaradıcılıq klubları, bədii yaradıcılıq mərkəzləri, ekoloji mərkəzlər və s.

Məktəbdənkənar müəssisələrin üçüncü şəbəkəsinə daxildir: İdman və incəsənət (studiyaları), gənc radistlər klubu, gənclər meydançaları, sağlamlıq mərkəzləri, dəmiryol stansiyaları, estetik tərbiyə mərkəzləri, gənc dənizçilər klubu, gənc aviatorlar stansiyaları, incəsənət mərkəzləri və s (2, 69).

Göründüyü kimi məktəbdənkənar tərbiyə müəssisələri öz səmərəli fəaliyyətləri ilə gənc nəslin təlim-tərbiyəsinə yetərli töhfə verməkdədir.

Digər ədəbiyyatda məktəbdənkənar tədbirlərin metodları məsələləri işıqlandırılıb. Bu baxımdan prof. M.M. Əmirov yazır “ dərsdənkənar tədbirlərin təşkilinin üç forması var 1) kütləvi işlər

buraya daxildir: 1) şagirdlərin mühazirələrə, disputlara, söhbətlərə, görüşlərə, tarix gecələrinə, cəlb edilməsi; 2) qruplarla aparılan işlər – dərnəklər, gənc hüquqşünaslar, gənc tarixçilər, şagird dəstələri; 3) fərdi-işlərə - mütaliə, növbətçilik, məqalə yazmaq, şeir yazmaq və s" (3, 111).

Müəllifin irəli sürdüyü dərsdənkənar iş formaları respublikanın ümumtəhsil mək-təblərində çox istifadə edilir. İstifadə edilən həmin iş formaları mərhələ - mərhələ təkmilləşir, məktəblərdə təlim və tərbiyənin səmərəliliyini yüksəldir

Pedaqoji ensiklopediyada qeyd edilir ki, ekskursiya – bu təhsilalanlarda tədris tərbiyəvi işinin, təbii şəraitdə və ya muzeylərdə və s müxtəlif predmet və hadisələrin öyrənilməsini təşkil etməyə imkan verən forma və metoddur.

Məktəbdə tarix üzrə ümumi tədris ekskursiyası, həmçinin ekskursiyaların başqa növləri, hər şeydən əvvəl onların məqsədlərində əks olunur. Tarixi bilik elmi dünyagörüşlərinin formalaşmasına motiv yaradır. Ekskursiya əyaniliyi göstərir: Tarixi keçmişin bilavasitə mənimsənilməsi və keçmişin predmetləri və indiki həqiqətlərin aktiv dərk edilməsi tədris ekskursiyasının mahiyyətini təşkil edir.

Tədris ekskursiyaları anlayışları konkretləşdirir, parlaq və bədii təsəvvürlərin yaradılmasına kömək edir, tarixi biliklərin müxtəlif mənbələrini cəlb etməyə, ən yaxşı üsulla öyrənilən hadisə və prosesləri canlandırmağa, keçmişi bərpa etməyə imkan verir. Tədris ekskursiyası düşüncə və təxəyyülünün inkişafına imkan yaradır, onların idrak fəaliyyətini aktivləşdirir və müəyyən edir, tarixə maraq oyadır və inkişaf etdirir.

Tarixdən tədris ekskursiyası dərsdənkənar ekskursiyadan aşağıda sadalanan səciyyəvi cəhətlərinə görə fərqlənir:

a) Tarixdən tədris ekskursiyası məktəb proqramının əsasında keçirilir və tez-tez analoji mövzu sinifdə dərsi əvəz edir

b) Şagirdlər üçün məcburidir və bütün sinfi əhatə edir

c) Tədrisə ekskursiyasını adətən ekskursovod deyil, müəllim keçirir.

Hal-hazırda məktəblərdə yüzlərlə diyarşünaslıq və tarix muzeyləri yaradılmışdır. Burada müxtəlif tipli dərslərin keçirilməsini təmin edən şərait var. Belə ki, biliklərin yoxlanılması, dəftərlərdə qeydlər və s. Bu şagirdlərin muzeydə rahat yerləşməsi nəticəsində mümkün ola bilər. Muzeydə yalnız zəngin ekspozisiya materialları olduqda və həm də sinfə gətirilə bilməyən ekspozisiya materialı olduqda daha məqsədəuyğun olur.

Tarix təlimində tədris ekskursiyalarının formaları obyektin xarakterindən asılı olaraq bir neçə formaya bölünür:

a) Muzey; b) tarixi hadisələrin yerləri; c) tarixi-mədəni abidələr; d)müasir yerlər və s.

Tədris ekskursiyalarının səmərəli təşkilinin metodik şərtləri aşağıdakılardır:

Tədris ekskursiyalarının səmərəli keçirilməsinin metodik şərtlərinə tarix dərsinə verilən tələblər də aid ola bilər. Məktəblərdə tarix üzrə keçirilən tədris ekskursiyalarının bir neçə vacib metodlarının üstündə dayanaq:

1. Tədris ekskursiyası şagirdlərin xüsusi hazırlığını tələb edir. Müəllim əvvəlcədən sinif ilə ekskursiyanın mövzusu, yeri, vaxtı haqqında müsahibə keçirir, qısa olaraq obyektin özəllikləri haqqında məlumat verir.

2. Şagirdlərin təfəkkürünün inkişafına nail olmaq üçün düşünülmüş məsələlərin qoyulmasıdır (həm kollektiv, həm də fərdi) Şifahi və yazılı məlumat hazırlamaq, rəsm, şəkil çəkmək, həmçinin bülleten albom hazırlamaq, təşkil etmək və s.

Tapşırıq tarixi abidənin xüsusi "dilinin" başa düşülməsini formalaşdırmalıdır. Həmçinin abidə, sənəd, hər hansı tarixi mənbə öz-özünə deyil, hər hansı tarixi hadisə əsasında proseslərin inkişafı kimi yaranır. Eləcə də ümumi tipdə olan sual-tapşırıqlar da verilə bilər. Eksponatlardan hansı daha çox təəssürat yaratdı? Ekskursiya dərsində ən çox nə yadda qaldı? Dərsliklə müqayisədə siz yeni nə öyrəndiniz? Hansı eksponatlar hadisə, təzahür, insanlar haqqında daha aydın təsəvvür yaradır? Sizin keçmiş haqqında düşüncələriniz ekskursiya dərsindən sonra necə dəyişdi? Ekskursiya dərsində siz hansı tarixi mənbələrlə tanış oldunuz? Gördüyünüz eksponatların "dilinin" öz. ahəngi nədir?

3. Bir çox hallarda ekskursiyanı ekskursovod keçirir, amma müəllim də ona hazırlaşmalıdır. Əgər ekskursiyanı müəllim aparsa, ekspozisiyanı öyrənir, eksponatların fərdi xüsusiyyətlərini mənimsəyir, ətraflı təhlil üçün bir neçə obyekt seçməlidir.

4. Müsahibə zamanı, müəllim ekskursiya

obyektlərinin, materialının mənimsənilməsinə nail olmalıdır. Bu müsahibənin xarakteri müxtəlif ola bilər: bir çox hallarda əyani obyektlər bilikləri təyin edən mənbə kimi çıxış edir. Digər hallarda isə əsas aparıcı rolu müsahibə tutur, əyani obyektlər isə bədii, sənədli dayaq rolunu oynayır. Tədris ekskursiyası tələbələrin yalnız əyani təsəvvürlərlə yüklənməsi ilə məhdudlaşmır. onun gedişində xarici obyektin təsvirini və hadisənin mahiyyətinin açılmasını, onun qanunauyğunluqlarını birləşdirməlidir

Nəzəri material əyani obyektlərin mənimsənilməsini aktivləşdirir, onların mahiyyətini anlamağa kömək edir. Eyni zamanda zəruri tarixi təsəvvürlərin yaradılmasına, mürəkkəb anlayışları mənimsəməyə, ümumiləşdirilmiş biliklər Müəllim və ya şagirdlərə abidələri, eksponatları oxumağı və görməyi öyrətməlidir. Onların spesifikasını başa salmaq müəllimin fəaliyyətinin məcburi vəzifəsidir. Ekskursiyada həmçinin keçmişin şifahi canlandırılması obyekti onun ilk görüşündə təsvir etmək, dövr haqqında parlaq müsahibə ilə ayrı-ayrı eksponatları bağlamaq, insanlar, onların əhval-ruhiyyələri, zövqləri, adət-ənənələrini qeyd etmək çox vacib və əhəmiyyətlidir.

5. Ekskursiyalarda hekayə, təsvir, başa salmaq, sənədlərlə iş və s. istifadə oluna bilər. Ancaq təlimin formalarından istifadə muzeydə və şəkil qalereyasında müxtəlif olacaq (əmək alətlərinin, geyimlərin, avadanlıqların təsviri vaxtı) digər tərəfdən, abidə yerləri (küçə ekskursiyaları, abidələrə baxış, döyüş yerləri və s) üzrə ekskursiyaların gedişi müxtəlif olur. Bu vaxt müəllim nəinki şagirdlərin müşahidələrinə, obyektləri xarakterizə etməyə rəhbərlik edir, həm də abidələr haqqında canlı, bədii şərh verir, şagirdlərin özlərinin obyektlərin müşahidəsi zamanı mənimsəyə bilmədikləri məlumatları onlara mənimsədir.

Nəticə olaraq deyə bilərik ki, tədris ekskursiyalarının təşkilində didaktikanın və tərbiyə nəzəriyyəsinin tələbləri nəzərə alındıqda həm təlimin, həm də tərbiyənin səmərəliyi, yüksəlir, şagirdlərin şəxsiyyət kimi formalaşdırılmasına motiv yaranır.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, tədris ekskursiyalarının mahiyyəti, məzmunu, didaktik və tərbiyəçi əhəmiyyəti ümumiləşdirilmişdir.

Nəzəri əhəmiyyəti ondan ibarətdir ki, tarixdən tədris ekskursiyaları üzrə yaradılmış iş sistemi üzrə yaradılmış iş sistemi tarixin tədrisi metodikası elminin nəzəri əsaslarına daxil olaraq onu daha da zənginləşdirəcək.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə irəli sürülən iş sistemindən ümumtəhsil məktəblərinin tarix müəllimləri istifadə edə biləcəklər.

Tarix üzrə tədris ekskursiyalarının səmərəli təşkili məktəbdə təlim tərbiyənin yüksəldilməsinin mühüm vasitəsi kimi.

## ƏDƏBİYYAT


1. Сорокина Т.В. Воспитание школьников неучебное время. М.: Просвещение, 1948.
2. Abbasov A.N. Pedaqogika: Müxtəsər konspekt və sxemlər. Bakı: Mütərcim, 2007.
3. Əmirov M.M. Tarix üzrə dərsdənkənar iş. Bakı, 2014.


**М. Нагиева**

## ЭФФЕКТИВНАЯ ОРГАНИЗАЦИЯ УЧЕБНЫХ ЭКСКУРСИЙ ПО ИСТОРИИ КАК ВАЖНОГО СРЕДСТВА ПОВЫШЕНИЯ УРОВНЯ ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ В ШКОЛЕ

***РЕЗЮМЕ***

В статье обоснована актуальность проблемы. Изучен уровень разработки – исследования статьи. Растолкованы сущность учебных экскурсий, дидактические и воспитательные стороны содержания. Внесена ясность в различительные стороны учебных экскурсий от других экскурсий. Установлены и обобщены в системном виде требования, обеспечивающие планирование, организацию и рациональность проведения учебных экскурсий.

**M. Naghiyeva**

**EFFECTIVE ORGANIZATION OF EDUCATIONAL TOURS ON HISTORY AS AN IMPORTANT MEAN TO IMPROVE LEVEL OF TRAINING AND EDUCATION IN SCHOOL**

***SUMMARY***

The essence of the problem was justified in the article. The level of development of the topic was studied. The essence of the excursions of education, content, deductive and educational aspects were commented. The different aspects of education excursions from other excursions were clarified. The implementation of the education excursions from the history were summarized by identifying the requirements of its organization and providing efficiency in a systematic way.

**Redaksiyaya daxil olub: 09.10.2017**